# 15 İyun - Milli Qurtuluş Günüdür

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyun 2016-cı il № 45 (2060) Qiyməti 25 qəpik


# Ümummilli liderin xilaskarlıq missiyası

***Tarixi şəxsiyyətlərin böyüklüyü, əslində, onların əməllərinin əhəmiyyətilə, öz xalqlarının taleyinə və cəmiyyətin inkişafına göstərdikləri təsirin miqyası ilə ölçülür. Belə dünya səviyyəli dövlət adamlarından söhbət düşəndə ümummilli lider Heydər Əliyev və onun Azərbaycan naminə gördüyü möhtəşəm quruculuq işləri də xatırlanır.***

Sovet dönəmində uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev respublikamızın iqtisadi, siyasi, sosial və mədəni tərəqqisi üçün böyük işlər görmüşdü. O zaman sənayenin, kənd təsərrüfatının dirçəldilməsi, müasir zavod və fabriklərin ölkəmizdə inşasına nail olmaq, iqtisadi inkişafın həlledici amillərindən olan böyük enerji layihələrinin gerçəkləşdirilməsi, su-elektrik stansiyalarının tikintisi, əslində, Azərbaycanın iqtisadi görkəmini dəyişmişdi. Əsas kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın və üzümçülüyün genişləndirilməsi yekunda insanların maddi rifahının xeyli yüksəlməsinə gətirib çıxarmışdı. Azərbaycan həmin dövrdə bir sıra iqtisadi göstəricilərinə görə keçmiş SSRİ respublikalarını qabaqlamağa başlamışdı. Elmin, mədəniyyətin yüksəlməsi istiqamətində respublika rəhbərliyinin gördüyü işlər nəticəsində bir sıra elm, mədəniyyət xadimləri SSRİ dövlət mükafatlarına, fəxri adlara layiq görülmüşdülər. Azərbaycan gənclərinin İttifaqın ən yüksək reytinqli elm və təhsil ocaqlarına göndərilməsi, ölkəmizdə yeni təhsil ocaqlarının açılması, müasir terminlə desək, insan kapitalına qoyulan ən əhəmiyyətli yatırımlar ölkəmizin gələcəyinə hesablanmış mühüm addımlar idi. Həmin insanlar qazandıqları bilik və bacarığı sonradan müstəqil Azərbaycan naminə istifadə edəcəkdilər. Təkcə bu nəhəng xidmətlərinə görə Heydər Əliyev xalqımızın tarixində ən şərəfli məqamı özünə təmin etmişdi.

Amma ümummilli liderin Azərbaycan naminə ən böyük xidməti onun dövlətçiliyimizi xilasetmə missiyası idi. Sanki

Ümummilli lider Heydər Əliyev:

*Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm.*



SSRİ-nin süqutu və müstəqilliyimizin ilk illərində Azərbaycan üçün ilahi qüvvə tərəfindən seçim imkanı yaradılmışdı: ölkəyə rəhbərlik edən siyasi liderləri fəaliyyətlərinə görə müqayisə etmək və xalqı təhlükələrdən xilas etmək gücündə olan siyasi xadimin ətrafında birləşərək bütün fəlakət və çətinlikləri dəf etmək.

Həmin mürəkkəb və keşməkeşli illərdə ölkəmizin rəhbərliyində təmsil olunmuş qüvvələrin siyasi baxımdan qeyri peşəkarlığı, uzaqgörən olmaması, tarixin gedişini düzgün anlamaması və hadisələrin inkişafını obyektiv dəyərləndirməməsi nəticəsində xalqımız ağır sınaqlardan keçməli olmuşdu. 20 Yanvarda İttifaq rəhbərliyi tərəfindən xalqımıza qarşı hərbi-siyasi qəsd törədildi, dünya ermənilərinin və Ermənistanın havadarlarının köməyilə əzəli ərazimiz olan Dağlıq Qarabağın ölkəmizdən qoparılması üçün gerçəkləşdirdiyi böyük siyasi təxribatın mahiyyətinin uzaqgörənliklə dəyərləndirilməməsi, xalqın vahid məqsəd ətrafında konsolidasiya edilməməsi nəticəsində Azərbaycan addım-addım fəlakətə sürüklənirdi.

Görkəmli alman filosofu Georq Vilhelm Hegelin şəxsiyyətlərin rolu ilə bağlı yazdığı və Azərbaycanın düçar olduğu vəziyyətə tamamilə uyğun gələn fikirləri necə də yerinə düşür: "Sürətlə siyasi tənəzzülə yaxınlaşan xalqların taleyini yalnız dahilər xilas edə bilərlər."

Bir-birinin ardınca düşdüyü bəlalar Azərbaycan xalqını öz nicatını başqa şəxslərdə deyil, müdrik rəhbər, siyasətin qrossmeysteri adlandırılan dünya miqyaslı dövlət adamı Heydər Əliyevə üz tutmağa vadar etdi. Xalqın təkidli tələbilə böyük öndər siyasi hakimiyyətə qayıtdı. Zəngin hakimiyyət təcrübəsi, beynəlxalq və regional siyasi prosesləri nəzəri cəhətdən düzgün qiymətləndirmək və mümkün optimal qərarları qəbul etmək bacarığına, möhkəm xarakterə və qətiyyətli iradəyə malik, xalqı vahid məqsəd ətrafında birləşdirməyə qadir olan Heydər Əliyev yetərincə müşkül və taleyüklü bir vəzifəni çiyinlərinə götürdü.

15 iyun 1993-cü ildə keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinin iclasında tarixi çıxışında Heydər Əliyev birmənalı olaraq bəyan etdi: "Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm."

Həmin gün - 15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Ümummilli liderin xilaskarlıq missiyası

(Əvvəli 1-ci səhifədə)

Müstəqilliyimizin ilk illərində böyük öndərin rəhbərliyi və gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı tənəzzül və xaosdan azad olmağı bacardı. Dövlət çevrilişi cəhdlərinə, müxtəlif manеələrə baxmayaraq, Prezident Heydər Əliyev bütün maneələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxartdı. Böyük iradəsi və gərgin zəhməti bahasına ulu öndər ölkə daxilində sabitlik və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaratdı. Ümummilli liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin kontraktı" adını almış neft müqavilələri imzalandı. Dövlətimiz faktiki olaraq bununla dinamik inkişaf yoluna qədəm qoydu.

Ümummilli liderin rəhbərliyi dövrü, 1993-2003-cü illər ölkəmiz üçün həlledici zaman oldu, yəni o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, ölkəmiz faktiki olaraq dünya birliyinə qovuşdu.



O illərdə müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi ilə siyasi sistem möhkəmləndirildi və ölkəmizin hərtərəfli inkişafı üçün möhkəm zəmin yaradıldı. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafını müəyyən etdi.

Böyük iqtisadi layihələrin gerçəkləşdirilməsi, başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu. Əslində, ölkəmizdə ordu quruculuğu prosesi məhz ulu öndərin adı ilə bağlıdır. Öncə dövlət rəhbərliyi tərəfindən orduda neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi.

Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox işlər görmüşdü.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyi haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırırlar. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev azərbaycanlı gənclərin hərbi peşəyə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail oldu. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir. Hərbi Liseyi bitirmiş insanlar arasında da bu gün yüksək rütbəli zabitlər, generallar var və onlar dövlətimizin müdafiə qüdrətinə öz töhfələrini verirlər. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da bu məktəbin yetirməsidir və ilk hərbi vərdişlərə burada yiyələnib.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında mühüm rol oynayan ölkədir.

2008-ci ildə Azərbaycan özünün rabitə peykinin orbitə çıxarılması haqqında qərar qəbul etdi. Beş il sonra Azərbaycanın ilk süni peyki orbitə çıxarıldı. Bu isə o demək idi ki, Azərbaycan kosmik ölkələr sırasına daxil olub.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərindən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini əldə edərək 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, ulu öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi.

2005-ci ildə Avropa Şurasının Parlament Assambleyası Dağlıq Qarabağ münaqişəsinə dair 1416 saylı qətnamə qəbul edərək Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini rəsmən tanıdı. AŞ PA həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistanın Azərbaycan ərazilərini dərhal işğaldan azad etməsini tələb edən dörd qətnaməsinin hələ də icra olunmamış qaldığını xatırlatdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji məsələlərdəndir.

Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə silahlanmış, yüksək təchizata, intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Böyük öndərin formalaşdırdığı və onun yaratdığı zəmin üzərində inkişaf etmiş Silahlı Qüvvələrimizin bu gün nəyə qadir olduğunu işğalçı Ermənistanın silahlı birləşmələrinə qarşı aprel döyüşlərində bölmələrimiz nümayiş etdirdi. Cəsur Azərbaycan zabit və əsgərlərinin gücü ilə cəbhəyanı yaşayış məntəqələrimizə təhlükə yaradan yüksəkliklər düşməndən birdəfəlik təmizləndi. Bununla ordumuz bir daha sübut etdi ki, işğal edilmiş ərazilərimizi azad etməyə və Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri Silahlı Qüvvələrin rəhbər heyəti ilə xidməti müşavirə keçirib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, nazirliyin Baş İdarə və İdarə rəisləri, Silahlı Qüvvələrin qoşun növü komandanları, eləcə də birlik komandirlərinin iştirakı ilə geniş tərkibdə xidməti müşavirə keçirilib.

Müşavirədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, qoşunların döyüşə hazırlıq səviyyəsinin və idarəetmə orqanlarının fəaliyyətinin hərtərəfli yoxlanılması, döyüş və qarşılıqlı uzlaşmanı təmin edən müxtəlif səviyyəli, o cümlədən hərbi texnikanın və bütün qoşun növlərinin tətbiqi ilə operativ-taktiki təlimlərin keçirilməsinə hazırlıq və qarşıda duran digər tapşırıqlar müzakirə olunub.

## Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının iclasında iştirak edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün iyunun 14-də Rusiya Federasiyasının Moskva şəhərinə yola düşüb.

İclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərinin müzakirə edilməsi planlaşdırılır.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

İyunun 13-dən 16-dək İzmir şəhərində (Türkiyə Respublikası) əməliyyat planlaşdırması prosesi kursu və iyunun 13-dən 17-dək Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) kiçik, yüngül silahlar və minalarla bağlı fəaliyyətlər kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində, Noyemberyan rayonunun Voskevan, Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Kəmərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Milli Qurtuluş Günü təntənə ilə qeyd edilir




***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Orduda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı silsilə tədbirlər keçirilir.***

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev dövlətçilik tariximizin yeni mərhələsini - müstəqilliyimizi əbədiləşdirən uğurlu və müqəddəs bir yolun başlanğıcını qoydu. Bu dahi şəxsiyyətin hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Xalqın təkidli çağırışına səs verən ulu öndərimiz düçar olduğumuz bəla və xaosu aradan qaldırmaq üçün heç bir dövlət başçısının öhdəsindən gələ bilməyəcəyi bir məsuliyyəti üzərinə götürməklə Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. Ona görə də "Heydər Əliyev müasir Azərbaycanın qurucusu və memarıdır" fikri tam reallığı əks etdirir.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Ümummilli liderimiz Heydər Əliyev qısa müddətdə ölkənin hərtərəfli inkişafını təmin etməklə xalq-iqtidar birliyini daha da möhkəmləndirdi. Bu həmrəyliyi, bu birliyi daha da sarsılmaz etdi.

Ulu öndərin tarixi qayıdışından sonra ölkə həyatının bütün sahələrində dinamik inkişaf başlandı. Həm hüquqi dövlət quruculuğu istiqamətində, həm iqtisadiyyatın dirçəldilməsi yolunda, həm cəmiyyətdə kütləvi xarakter almış cinayət hallarının qarşısının alınmasında, həm də ordu quruculuğu istiqamətində çox böyük uğurlu addımlar atıldı. Orduda aparılan quruculuq işləri öz bəhrəsini verdi. Getdikcə güclənən Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən düşmən 1994-cü il mayın 12-də atəşkəs barədə razılığa gəlməyə məcbur oldu. Atəşkəs rejimi elan olunduqlan sonra ordu quruculuğu prosesi daha da sürətləndi. Həyata keçirilən islahatlar nəticəsində az vaxt ərzində böyük uğurlar əldə olundu. Ordunun maddi-texniki təminatı getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, qələbə əzmi daha da yüksəldi. Ona görə bu gün biz tam inamla deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyev güclü, qüdrətli Azərbaycan Ordusunun qurucusu və yaradıcısıdır.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu gün ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Başqa sahələrdə olduğu kimi, ordu və hüquqi dövlət quruculuğu istiqamətində mühüm islahatlar həyata keçirilir. Bu uğurlu islahatlar Silahlı Qüvvələrin daha güclü və daha qüdrətli olmasını təmin edir.

Uğurla başa çatan aprel döyüşləri bir daha göstərdi ki, ordumuz güclü və qüdrətlidir. Silahlı Qüvvələrimiz qısa müddət ərzində torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadir və hazırdır.

Dövlət büdcəsindən orduya ayrılan vəsait ildən-ilə artırılaraq Silahlı Qüvvələrdə xidmət edən zabitlərin sosial müdafiəsi daha da gücləndirilir. Təkcə bir faktı deyək ki, Azərbaycanın yalnız hərbi xərcləri Ermənistanın bütöv dövlət büdcəsi qədərdir. Bu isə ordumuza dövlətin böyük diqqət və qayğısının bariz nümunəsidir.

Bu gün xalqımız Qurtuluş Gününü böyük sevinc və coşqu ilə qeyd edir. Ulu öndər Heydər Əliyevin keçdiyi şərəfli ömür yolu, siyasi fəaliyyəti Azərbaycanın hər bir vətəndaşı, hər bir gənci, zabiti, hüquqşünası, giziri, əsgəri üçün örnək və nümunədir. Böyüməkdə olan nəsillər tükənməz Heydər Əliyev irsini dərindən öyrənir, onun ölməz ideyalarından layiqincə bəhrələnirlər.

* * *

Dövlətçiliyin möhkəmləndirilməsində müstəsna əhəmiyyəti olan tarixi günlər həmişə böyük coşqularla qeyd edilir. 1993-cü ilin 15 iyun günü kimi...

15 İyun - Qurtuluş Günü kimi tarixləşdi. Bu günü Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də böyük sevgiylə, ehtiramla qeyd etdi.

Əvvəlcə ulu öndər Heydər Əliyevin qərargahın qarşısında ucaldılmış abidəsi ziyarət olundu və xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycanın Dövlət himni səsləndirildi.

Birinci dərəcəli kapitan Natiq Bağırov böyük tarixi şəxsiyyət Heydər Əliyevin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış etdi.

Məruzəçi qeyd etdi ki, müasir Azərbaycanın dövlətçilik memarı olan dahi rəhbər ən böyük azərbaycanlı idi. "Heydər Əliyevin siyasi fəaliyyəti azərbaycançılıq ideologiyasını müəyyənləşdirən milli strategiya idi. O, həqiqətən müasir Azərbaycanın dövlətçilik memarıdır, çünki xalqın tələbiylə yenidən siyasi hakimiyyətə qayıtmaqla dövlətçiliyimizi labüd parçalanmadan xilas elədi. Azərbaycan dövlətçiliyi Heydər Əliyevin hakimiyyətə qayıdışıyla yaşam qazandı.

Heydər Əliyev qısa müddətdə daxili separatçı qüvvələri zərərsizləşdirdi və müdrik siyasətiylə dünyanın aparıcı dövlətlərinin diqqətini Azərbaycana yönəltdi. İstər iqtisadi, istərsə də siyasi baxımdan Azərbaycan üçün olduqca səmərəli olan neft müqavilələrinin imzalanmasına nail oldu. Ordu quruculuğunda mühüm islahatlar həyata keçirilməklə Silahlı Qüvvələrimiz dünyanın böyük dövlətlərinin orduları səviyyəsinə yüksəldi...

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı bu baxımdan qurtuluş günüdür."

O, çıxışını "Heydər Əliyev dünənimiz, bu günümüz, sabahımızdır" - fikri ilə tamamladı...



Kapitan Ruslan Həşimov da çıxış edərək Qurtuluş Gününün tarixindən, mahiyyətindən, bu günümüz, gələcəyimiz baxımından əhəmiyyətindən danışdı. Qeyd etdi ki, müstəqilliyi qoruyub saxlamağın onu əldə etməkdən çətin olduğunu hərbi dənizçilər də yaxşı bilirlər. "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirir. Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də torpaqlarımızı işğaldan azad etməyə daim hazırdır."

Sonda Hərbi Dəniz Qüvvələri hərbi orkestrinin ifasında vətənpərvərlik mahnıları ifa edildi, klassik musiqilərdən parçalar səsləndirildi.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, hərbi hissələrin, Hərbi Akademiyanın, veteran təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştiark ediblər.

Əvvəlcə ulu öndərimizin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət himni səsləndirilib.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edib və "15 İyun - Milli Qurtuluş Günü milli dövlət quruculuğumuzun ən mühüm tarixi mərhələsidir" mövzusunda məruzə ilə çıxış edib. O qeyd edib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. "Vətənini, xalqını sevən hər kəs üçün 15 iyun əsl qurtuluş tarixi, müstəqilliyimiz uğrunda mübarizənin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqil dövlətçiliyinin qorunmasında müstəsna rol oynayan, daim xalqını düşünən dahi bir insandır - Heydər Əliyevdir."

Məruzədə qeyd olunub ki, müstəqilliyimizin ilk illərində ölkədə ictimai-siyasi vəziyyət gərgin idi, bütün sahələrdə xaos, hərc-mərclik baş alıb gedirdi, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. "Azərbaycan dövləti parçalanmaya doğru gedirdi. Məhz belə ağır ictimai-siyasi dövrdə bütün Azərbaycanın gözü Naxçıvana dikildi, xalq öz liderini hakimiyyətə - müstəqil Azərbaycan dövlətini xilas etməyə dəvət etdi. Azərbaycanın böyük oğlu Heydər Əliyev xalqın bu ağır günündə dəvəti qəbul edib iyunun 9-da Bakıya gəldi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Məhz bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu."

Sonra tədbirdə "Tarixin şanlı səhifəsi" adlı sənədli film nümayiş olunub. Muzeyin elmi işçisi Sevər Həsənova "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında vurğulayıb ki, bu gün müstəqilliyimizin, dövlətçiliyimizin dayağı ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan doğma ordumuzdur. "Bugünkü gündə nizami ordumuz regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Ümummilli liderin ordu quruculuğu siyasətinin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ordumuzun qüdrətini gün-gündən artırıb. Zəngin hərb tarixinə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq."

Sonda hərbi vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.



**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Maneələr peşəkarlıqla dəf edildi

## Mühəndis-istehkam bölmələri ilə taktiki təlim

***Ta qədim zamanlardan hərbi əməliyyatların keçirilməsində mühəndis-istehkamçılar böyük rol oynayıb. Qoşunların önündə getdiklərinə və döyüşün aparılması üçün zəmin hazırladıqlarına görə onları ordunun "pionerləri" adlandırırdılar. Bu gün Azərbaycan Silahlı Qüvvələrində də mühəndis-istehkamçılar üzərlərinə düşən böyük və məsuliyyətli tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirirlər. Aprel döyüşləri zamanı ön mövqelərdə mühəndis-istehkamçılarımız əsl fədakarlıq və rəşadət nümunələri göstərmişdilər.***





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq, Silahlı Qüvvələrin mühəndis-istehkam qoşunlarının döyüş hazırlığı təlimi keçirilib.

Təlimin keçirilməsində məqsəd mürəkkəb şəraitdə hərbi əməliyyatın mühəndis təminatının yerinə yetirilməsilə bağlı komandirlərin bacarığını və bölmələrin idarə edilməsini praktik fəaliyyətdə yoxlamaq idi.

Planda nəzərdə tutulduğu kimi, öncə hərbi hissənin döyüşə hazır vəziyyətə gətirilməsi və əməliyyatın mühəndis təminatının yerinə yetirilməsi oldu.

"Həyəcan" siqnalı ilə qaldırılan şəxsi heyət təyin edilmiş rayona çıxarıldı. Cəmləşmə rayonunda yerləşdikdən sonra bölmələr ixtisas üzrə praktik məşğələdə iştirak etdi və mühəndis qoşunlarında silahlanmaya yeni qəbul edilmiş müasir texnika və vasitələr barədə təlimatçı zabitlər məlumat verdilər. Həmçinin tank körpüquranları, maneələğvetmə texnikası, partlamayan maneələr və mühəndis döyüş sursatlarının yeni növləri nümayiş etdirildi.



- Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını bütövlükdə Silahlı Qüvvələrimizdə olduğu kimi, mühəndis qoşunlarında da hər gün hiss edirik, - Mühəndis Qoşunları İdarəsinin rəisi polkovnik Anar Kərimov deyir. - Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Və bu tədbirlərin nəticəsində keçirilən taktiki-xüsusi təlimlər həm mühəndis-istehkamçıların nəyə nail olduqlarını nümayiş etdirir, həm də onların praktik vərdişlərinin möhkəmləndirilməsində irəliyə doğru növbəti addım olur. Hazırda bölmələrimiz ən müasir mühəndis texnikası və digər ləvazimatlarla tam təchiz edilib. Bu, qarşımıza qoyulan bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə imkan verir.

Ponton-körpü bölməsinin su maneələri üzərindən bölmələrin keçirilməsi üzrə fəaliyyəti ərazidə praktik olaraq yerinə yetirildi. Öncə ponton parkı haqqında məlumat verildi. Sonra üzən mühəndis texnikası vasitəsilə desantların keçirilməsi məşq etdirildi. İstehkamçılar ponton dəstinin yaxın və uzaq sahildə qurulması, körpülərin üzərindən maşın və döyüş texnikasının keçirilməsi işlərini müəyyən edilmiş normativlər çərçivəsində yerinə yetirməyi bacardılar.

Sonra bölmələr döyüşə hazır vəziyyətinə gətirildi. Alınmış döyüş tapşırığı aydınlaşdırıldıqdan sonra komandir heyəti vəziyyəti qiymətləndirərək qərar qəbul etdi. Qərara əsasən qarşıya qoyulmuş döyüş tapşırığı bölmələrə çatdırıldı.

Şəxsi heyət təlim meydanında müasir hərbi əməliyyatlar zamanı mühəndis-istehkam sahəsi üzrə müxtəlif tapşırıqları yerinə yetirdi. Şərti düşmənin mina sahələrindən partlayış üsulu ilə keçidlərin açılması, maneələğvetmə qruplarının hərəkəti, körpü qurğularından istifadə etməklə qarşıya çıxan maneələrin keçilməsi, o cümlədən "düşmənin" tank əleyhinə xəndəklərinin, ərazinin dərinliyində yaratdığı qurğuların dəf edilməsi, qurulmuş körpülər üzərindən keçid, əlverişli həddə müdafiə qurğularının yaradılması ilə bağlı şəxsi heyət öz bilik və bacarığını nümayiş etdirdi.

Mühəndis-istehkam, maneələğvetmə və mühəndis yol bölmələri mina sahələrində əl və partlayış üsulu ilə keçidlərin açılması, məftil maneələrin müxtəlif üsullarla keçilməsi, dərinlikdə maneələrin dəf edilməsilə bağlı tədris dövründə qazandıqları bilik və vərdişləri peşəkarlıqla icra etdilər.

- Mühəndis-istehkam bölmələri taktiki-xüsusi təlimdə qarşıya qoyulmuş bütün tapşırıqları bacarıqla yerinə yetirdilər, - polkovnik Anar Kərimov təlimin yekunu ilə bağlı fikirlərini bildirdi. - Müasir hərbi əməliyyatlarda mühəndis-istehkamçılardan tələb edilən tapşırıqlar icra edildi. Zabit və əsgərlərimiz, demək olar ki, döyüş şəraitində öz vəzifələrinin öhdəsindən gəldilər.

Taktiki-xüsusi təlimdə general-mayor Elbrus Orucov iştirak edirdi. O, söhbətimizdə ərazidə görülən işlərin nəticələrindən razı qaldığını bildirdi.

Təlimin yekununda tapşırıqların yerinə yetirilməsində fərqlənmiş mühəndis-istehkamçıların adları qeyd edildi.

**Ə.MƏHƏRRƏMOĞLU,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**





# Türkiyədə Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə növbəti təlim keçirilib




***Türkiyənin İsparta vilayətində keçirilən çoxmillətli birgə xüsusi təyinatlı qüvvələrin təlimində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları ilə yanaşı, Bolqarıstan və Gürcüstan hərbçiləri də iştirak ediblər.***

İspartada 90 illik tarixi olan Dağ Xüsusi Təyinatlılar Məktəbi və Tədris Mərkəzi Komandanlığı Türkiyənin Quru Qoşunları üçün xüsusi təyinatlıların yetişdirilməsi və terrorçularla mübarizə aparan birliklərin təlimində mühüm rol oynayır. Komandanlığın təşkilatçılığı ilə keçirilən "Komando EX - 2016" çoxmillətli xüsusi təyinatlı qüvvələr təliminin yüksək səviyyəli müşahidəçi gününə Türkiyə, Azərbaycan və digər iştirakçı ölkələrin silahlı qüvvələrinin yüksək rütbəli nümayəndələri və Ankaradakı hərbi attaşeləri qatılıblar.

Məlumat verilib ki, təlimdə suüstü xüsusi təyinatlıların əməliyyatı, taktiki hücum, hava hücumu və yaxın hava dəstəyi kimi fəaliyyət növləri üzərində iş aparılır. Təlimin məqsədi iştirakçı ölkələrin xüsusi təyinatlı birlikləri arasında bilik və təcrübə mübadiləsinin təmin olunması, birlikdə işləmək qabiliyyətinin inkişaf etdirilməsidir. Əsas vəzifə xüsusi təyinatlı əməliyyat növlərinə dair müştərək əməliyyatların planlaşdırılması və icrası qabiliyyəti, müvafiq bilik və bacarıqların təkmilləşdirilməsi, əməliyyat növləri ilə bağlı üsul, əsas və terminologiya birliyinin təmin edilməsidir.

Təlimin ssenarisinə əsasən, beynəlxalq xüsusi missiya qüvvələrinin humanitar yardım fəaliyyəti və BMT-nin karvanlarının fasiləsiz çatdırılması məqsədilə şərti bölgədəki hava limanının nəzarət altına alınması tapşırığı yerinə yetirilib. Bunun üçün yaxınlaşmaqda olan suüstü xüsusi təyinatlıların sahilə təhlükəsiz şəkildə çıxması təmin edilib. Terrorçu qruplar arasında əlaqənin kəsilməsi



məqsədilə onların rabitə stansiyası kimi istifadə etdikləri qurğular sıradan çıxarılıb. Hava hücumunun təhlükəsizliyinin təmin edilməsi üçün terrorçuların hava hücumundan müdafiə silahları məhv edilib. Nəticədə hücum helikopterlərinin dəstəyi ilə hava limanı nəzarət altına alınıb.

Uğurla həyata keçirilən bütün əməliyyat növlərində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları fəal iştirak ediblər. Yüksək səviyyədə həyata keçirilən təlimlərdə qarşıya qoyulan bütün tapşırıqlar yerinə yetirilib.

**AZƏRTAC**

# Təlimdən sonrakı nikbin ovqat

***Bu gün qartalın belə qanad saldığı uca zirvələrdə xidmət aparan hərbi qulluqçularımız üçün dövlətimiz tərəfindən hərtərəfli sosial-məişət şəraiti yaradılıb. Əsgərlərimiz hamının həsəd apardığı bir şəraitdə xidmət edirlər. Buna görə də şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı yüksək səviyyədədir. Belə bir səviyyə deməyə əsas verir ki, işğalçı erməni ordusunun məğlubiyyəti qaçılmazdır.***



Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birinin təlim mərkəzində 23 mm-lik Zu-23-2 zenit qurğusu heyətlərinin praktiki atışları həyata keçirilirdi.

Zabit Mərahim Şirinov zenit qurğusunun taktiki-texniki xüsusiyyətləri haqqında məlumat verərək bildirdi ki, bu qurğu dəqiqədə 2000 atəş aça bilir. “Çəkisi 950 kq, vurma hündürlüyü 1,5 km, vurma uzaqlığı isə 2.5 km-dir. Praktiki atışların tez-tez icra edilməsi şəxsi heyətin bilik, bacarıq və təcrübəsini daha da artırır. Müntəzəm olaraq təlimlərə cəlb olunan heyətlərin praktiki atışlarda hədəfləri ilk atəşlə vurmaları onların peşəkarlığından xəbər verir.”

Sonra praktiki atışlar icra edildi. Heyətlərin cəld, çevik hərəkətləri diqqətimdən yayınmırdı. Təyin olunmuş hər bir hədəf tam dəqiqliyi ilə məhv edildi.

Praktiki atışlardan sonra kiçik çavuşlar Aqil Məmmədov, Şeymur Allahverdiyev, əsgərlərdən İqbal Adıgözəlov və İsmayıl Hüseynovla həmsöhbət oldum. Müsahiblərimin fikirləri ilə tanış olanda bir daha əmin olursan ki, hərbi xidmətin çətinlikləri yaradılan hərtərəfli sosial-məişət şəraiti ilə yanaşı, keçirilən dərs və məşğələlərdə qazanılan təcrübə ilə də geridə qalmış olur. "Bizim əsas amalımız işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edərək üçrəngli, ay ulduzlu bayrağımızı əzəli ata-baba yurdlarımızda dalğalandırmaqdır" deyən müsahiblərim buna görə də təlimlərdə, praktiki atışlarda fəal iştirak edərək təcrübə qazandıqlarını bildirdilər.

Hərbi ekspertlərə görə, yerüstü zirehli hədəflərə və canlı qüvvəyə qarşı çox effektli olan 23 mm-lik Zu-23-2 zenit qurğusu düşmənin alçaqdan uçan hava hədəflərini də vura bilər. Təbii ki, ordumuzun silah arsenalında işğalçıları tez bir zamanda məhv etməyə qadir ən müasir silah və texnikalar mövcuddur. Atıcı silahlardan tutmuş, ən güclü artilleriya qurğularına, ən müasir hava hücumundan müdafiə vasitələrinə qədər bütün növ silah və texnikaya malik ordunun qarşısında isə düşmən tab gətirə bilməz. Ən başlıcası, bu silah və texnikalar yüksək döyüş əzminə malik vətənpərvər döyüşçülərə təhkim edilib.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Polşada keçirilən sammitdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır nəticələrindən danışılıb

Polşada keçirilən Beynəlxalq Qadın Sammitində Milli Məclisin deputatı Qənirə Paşayeva çıxış edərək dünyanın müxtəlif bölgələrindən gəlmiş yüzlərlə tanınmış qadına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müraciət edərək onları işğalçı Ermənistanın cinayətlərinə biganə qalmamağa çağırıb. Milli Məclisin deputatı Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdə üzləşdiyi problemlərdən danışıb. Bildirib ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yeridərək ərazimizin 20 faizini işğal edib və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün 20 ildən artıqdır öz yurd-yuvasına qayıda bilmir. Ermənistan BMT Təhlükəsizlik Şurası da daxil olmaqla, beynəlxalq təşkilatların qətnamələrinə məhəl qoymur və 100 minlərlə azərbaycanlı qaçqın, məcburi köçkün qadın dünyanın harasında yaşamasından asılı olmayaraq bu sammitdə iştirak edən yüksək səviyyəli qadınlar başda olmaqla, nüfuzlu, fəal qadınların bu ədalətsizliyə etiraz etməsini, doğma yurd-yuvalarına dönmələri üçün onların dəstəyini və bu istiqamətdə səylərini gücləndirmələrini gözləyir.

Çıxışı zamanı deputat Ermənistanın mülki azərbaycanlılara qarşı törətdiyi cinayətlər barədə də məlumat verib.

"Biz dünyanın hər yerində insanları qaçqın, köçkün salan səbəblərlə fəal mübarizə aparmasaq, onların sayı və problemlər daha da artacaq. Ona görə işğala, insanların evlərinə qayıda bilməsinə mane olan səbəblərə qarşı mübarizə sərt olmalıdır. Belə ölkələrə qarşı ciddi təzyiqlər göstərmək lazımdır. Doğma yurduna qayıda bilməyən bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün sizdən məhz bunu gözləyir", - deyə Q.Paşayeva bildirib. Deputat sammitin iştirakçılarına Qarabağ həqiqətlərini, erməni yalanlarını əks etdirən materiallar, ingilis dilində sənədli filmlərin olduğu "Azərbaycan həqiqətləri" filmləri kataloqunu təqdim edib.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması və formalaşması tarixi.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən həmin mənbədən, eləcə də Azərbaycanda ordu quruculuğu haqqında dövri mətbuatda dərc olunan digər materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

**Suallar:**

**1. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğunun tarixi.**

**2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri. 26 İyun - Silahlı Qüvvələr Günüdür.**

## *1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğunun tarixi*

1917-ci ilin oktyabrında Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra Cənubi Qafqazda idarəetməni müvəqqəti orqan kimi yaradılan Zaqafqaziya Komissarlığı öz üzərinə götürdü.

1917-ci il dekabrın 6-da Zaqafqaziya Komissarlığının iclasında qərara alındı ki, Qafqaz ordusu milli tərkibli birləşmələr zəminində yenidən qurulsun. Bu qərara görə, tərkibi azərbaycanlılardan, gürcülərdən, ruslardan və ermənilərdən ibarət korpuslar təşkil edilməli idi.

Müsəlman Korpusunun yaradılması barədə dekret Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabrın 11-də qəbul edildi. Korpus komandiri isə general-leytenant Əlağa Şıxlinski təyin edildi.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Müsəlman Korpusunun qərargahı Tiflisdə yerləşirdi. 1918-ci ilin mayında korpusun şəxsi heyəti 1000 nəfərə qədər idi.

1918-ci il mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Lakin bu dövrdə Bakı və onun ətrafı bolşeviklərin hakimiyyəti altında idi. Azərbaycan ərazisində dövlət müstəqilliyini qorumaq üçün milli ordunun yaradılması ən vacib məsələlərdən biri idi. İlk Azərbaycan hökumətinin tərkibində hərbi nazir vəzifəsinə Xosrov bəy Sultanov təyin edildi. Lakin çox qısa müddətdən sonra, 1918-ci il iyunun 17-də təşkil olunan 2-ci hökumət kabinəsində hərbi nazir vəzifəsi nəzərdə tutulmadığı üçün Hərbi Nazirlik ləğv edildi. 1918-ci il iyunun 4-də Batumda Azərbaycanla Türkiyə arasında bağlanmış dostluq müqaviləsinə əsasən, Azərbaycan hökuməti Qafqazdakı türk qoşunlarının komandanı Nuru paşadan xahiş etdi ki, Azərbaycan Ordusunun təşkilində rəhbərliyi öz üzərinə götürsün.

1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman Korpusu "Xüsusi Azərbaycan Korpusu" adlandırıldı. Azərbaycan Korpusunun hissələri Qafqaz İslam Ordusunun hissələri ilə birgə qızğın döyüşlər apararaq Bakı şəhərini bolşevik-daşnak qoşunlarından azad etdi və 1918-ci il sentyabrın 15-də Bakıya daxil oldu.

Bakının azad edilməsi və Azərbaycan hökumətinin buraya köçürülməsi ordunun təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə də müsbət təsir göstərdi.

1918-ci il oktyabrın 11-də "Azərbaycan hökumətinin mükəlləfiyyətinin müvəqqəti qanunu" qüvvəyə mindi.

1918-ci il oktyabrın 27-də Gəncədəki Milli Hərbiyyə Məktəbinin ilk buraxılışı oldu.

1918-ci il noyabrın 7-də yenidən Hərbi Nazirlik təsis edildi. Nazir vəzifəsini Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz üzərinə götürdü.

Həmin il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr tarixli qərarı ilə isə general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

S.Mehmandarov tərəfindən diqqət yetirilən başlıca məsələlərdən biri dövrün tələblərinə uyğun olan struktur formasının seçilməsi idi. Hərbi Nazirlik diviziya sisteminə üstünlük verirdi. 1920-ci ilin martında Azərbaycan Ordusunun tərkibində iki piyada diviziyası, bir süvari diviziyası, iki topçu briqadası və bir sıra digər hissə və bölmələr fəaliyyət göstərirdi. Zabitlərin hazırlanması üçün Azərbaycanda sonralar hərbi məktəbə çevrilmiş Praporşiklər Məktəbi, İstehkam Məktəbi və Hərbi Dəmiryol Məktəbi var idi.

1919-cu ilin əvvəllərindən başlayaraq Zəngəzurda və Qarabağda ermənilərin silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı qırğın və talanlarının qarşısını almaq üçün Azərbaycan Ordusunun hissələri Qarabağda bir sıra uğurlu əməliyyatlar keçirdilər.

Qarabağ döyüşlərində Azərbaycan Ordusunun hissələri hərbi təşəbbüsü əllərində saxlayırdılar. İdarəetmənin düzgün təşkili, hissələrin döyüş fəaliyyətinə ardıcıl rəhbərlik, çevik taktika, qarşılıqlı əlaqələrin tənzimlənməsi, zərbələrin istiqamətinin və vaxtının düzgün seçilməsi ermənilərin təcavüzkar planlarını pozurdu.

1918-20-ci illərdə ordu quruculuğu tarixinin öyrənilməsi bu gün də böyük əhəmiyyət kəsb edir. Bugünkü Azərbaycan Ordusu Azərbaycan Xalq Cümhuriyyəti ordusunun varisidir. 1918-ci ildə yaradılmış Azərbaycan Ordusunun tarixi təcrübəsi bugünkü Silahlı Qüvvələrimiz üçün əsl örnəkdir. 1998-ci il mayın 22-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir.

## *Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri. 26 İyun - Silahlı Qüvvələr Günüdür*

Xalqımız 1991-ci ilin oktyabrında öz müstəqilliyini bərpa edərkən, əsrin əvvəlində olduğu kimi, erməni təcavüzünə məruz qaldı. Hərbi qəsdə cavab verə biləcək yeganə qüvvə isə Azərbaycanın öz ordusu ola bilərdi. Ona görə də 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar, 1991-ci il oktyabrın 9-da isə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi. Yaradılmağa başlayan Azərbaycan Silahlı Qüvvələri işğalçı erməni silahlı birləşmələri ilə döyüşə-döyüşə formalaşmağa səy göstərdi. Təəssüf ki, bu zaman hakimiyyətdə olan qüvvələr ordu quruculuğuna səhlənkar münasibət göstərirdilər.

Elə bir vəziyyət yaranmışdı ki, Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı müharibə aparmalı olduğu halda, daha çox hakimiyyət uğrunda mübarizə alətinə çevrilmişdi.

Bu səhvlərin nəticəsi tez bir zamanda özünü göstərdi. Şuşa və Laçın işğal edildi, Dağlıq Qarabağla Ermənistan arasında strateji "dəhliz" açıldı və ərazilərimizin sonrakı işğalı üçün zəmin yaradıldı.

Uzun sürən özbaşınalıqlardan, xəyanətlərdən bezmiş xalqın təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə dəvət olundu və 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün xalqımızın tarixinə qızıl hərflərlə yazılmış və Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 1997-ci ildən Milli Qurtuluş Günü elan edilmişdir. Məhz bu gündən etibarən respublikamızın bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də əsaslı dəyişikliklər baş verdi. Xalqla prezidentin birliyi orduya münasibəti kökündən dəyişdirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla, planlı surətdə həyata keçirməyə başladı.

Ordu quruculuğunun əsas mərhələsi 1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir.

Ordu quruculuğunun bu mərhələsində aparılan işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Ümummilli lider Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Silahlı Qüvvələrə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin Azərbaycan Respublikasının sənaye müəssisələrində istehsal edilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan Silahlı Qüvvələri ilk dəfə ordumuzun müqaviməti ilə qarşılaşdı. Dekabrın sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, xeyli canlı qüvvə və texnikaları məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad etdilər.

Belə bir şəraitdə ermənilər 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular. 12 may sazişi Azərbaycan Silahlı Qüvvələrinin yenidən qurulmasına şərait yaratdı.

Ötən müddət ərzində Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunmuş, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Quru Qoşunları, Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələrinin birləşmə və bölmələrində şəxsi heyətin intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar orduya çağırılan gənclərin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. İndi müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılır, lazımi maddi-texniki baza və şərait yaradılır.

Silahlı Qüvvələr üçün zabit kadrlarının hazırlanması Müdafiə Nazirliyinin başlıca vəzifələrindən biridir. Burada keçmiş SSRİ dövründə milli zabit kadrlarımızın yetişməsində müstəsna rolu olan, 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış C.Naxçıvanski adına Hərbi Liseyin rolunu və tarixi əhəmiyyətini qeyd etmək vacibdir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir standartlar səviyyəsində tədris bazası yaradılmışdır. Gizirlər Məktəbi və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası fəaliyyətə başlamışdır.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsinə və peşəkarlığına xidmət edir.

Dövlətçilikdə varislik anlayışına önəm verən ulu öndərimiz Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi. Bu gün qüdrətli ordumuz hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Artıq bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Azərbaycanda Silahlı Qüvvələrin ən müasir səviyyədə, o cümlədən NATO standartlarına uyğun şəkildə tamamilə yenidən qurulması, hərbi hissələrin maddi-texniki təchizatının təkmilləşdirilməsi, hərbçilərin məişət şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli üçün atılan ardıcıl addımlar bunu bir daha təsdiqlədi. Bu siyasət Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasına yönəldilib. Cənab Prezident öz çıxışlarında dəfələrlə qeyd edib ki, dövlətçiliyimizi qorumaq, torpaqlarımızı düşməndən azad etmək üçün Azərbaycanın güclü ordusu olmalıdır. Artıq ölkəmizdə müxtəlif hərbi texnika, döyüş sursatları istehsal edən çox güclü hərbi sənaye kompleksi yaradılıb. Ən əsası isə Azərbaycanın hərbi potensialı ilk növbədə daxili imkanlar hesabına gücləndirilir.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bəyan edən Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoymuşdur. Cənab Ali Baş Komandan demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir."

Bu ilin aprelində düşmənin növbəti təxribatının qarşısı alınarkən Silahlı Qüvvələrimizin cəbhə xəttindəki bölmələrinin şəxsi heyəti düşmənə layiqli cavab verərək 23 ildə ermənilərin yaratdığı üstünlük mifini puça çıxarmış, düşmən ordusunun döyüş ruhunu sarsıdaraq əks-həmlə nəticəsində işğal edilmiş torpaqlarımızın bir hissəsini, əhəmiyyətli yüksəklikləri erməni işğalçılarından azad etmişdir. Düşmən itirdiyi mövqeləri bərpa etməyə çalışsa da, buna nail ola bilmədi. Ordumuz öz gücünü göstərdi. Bütün bunlar bir daha sübut edir ki, ordumuz torpaqlarımızı hərbi yolla da azad etmək imkanlarına malikdir.

Ordumuzun aprelin əvvəllərində göstərdiyi şücaətə, fədakarlığa qoşulmaq arzusu ilə xalqımız torpaqlarımızın düşmən tapdağından azad edilməsi naminə birlik nümayiş etdirdi. Bu əhval-ruhiyyə düşmən üzərində qələbəyə inamı daha da artırdı.

Hər bir hərbi qulluqçu dərk etməlidir ki, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

18 İyun - İnsan Hüquqları Günüdür

# İnsan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir

*Bütün insanların hüquqi cəhətdən bərabərliyi BMT tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əksini tapmış təməl prinsiplərindəndir. Bu tarixdən etibarən insan hüquq və azadlıqları sahəsində artıq yeni bir mərhələyə qədəm qoyuldu. 1950-ci ildən başlayaraq hər il dekabrın 10-u bütün dünyada Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur. Sonralar BMT tərəfindən insan hüquqları sahəsində bir sıra digər sənədlər qəbul edildi. Onların arasında 16 dekabr 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, habelə İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktdır. Bəyannamədə və həmin beynəlxalq paktlarda təsbit edilir ki, hər kəs heç bir fərq qoyulmadan, o cümlədən irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli, yaxud sosial mənşəyindən, əmlak və ya digər vəziyyətindən asılı olmayaraq bu sənədlərdə təsbit edilmiş bütün hüquq və azadlıqlara malikdir.*

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra BMT-yə üzv qəbul olundu və elə həmin il BMT-nin qəbul etdiyi Paktlara, habelə Uşaq Hüquqları Konvensiyasına qoşuldu.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə yönəlmiş tədbirlər görüldü, insan hüquq və azadlıqlarının qorunmasına dair əsaslı islahatlar aparılmağa başlandı. Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etdi və beynəlxalq paktlarda əksini tapmış insan hüquq və azadlıqlarının təsbitinə xüsusi önəm verildi.

1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyilə Konstitusiyanın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı.

Azərbaycan Respublikasının Əsas Qanunu insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etdi, ölkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm qanunvericilik bazası yaratmağa imkan verdi.

Konstitusiyanın 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzindədir. Bu hüquqlar digər hüquqi normativ sənədlərdə də öz əksini tapır.

Azərbaycan Prezidentinin 18 iyun 1998-ci il tarixli sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi və insan hüquqlarının möhkəmləndirilməsi üçün mühüm addımlar atıldı. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.



Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyətə gəldikdən sonra hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, o cümlədən insan hüquqları sahəsində sistemli liderin başladığı sistemli islahatlar daha da genişləndirildi.

Doğrudan da, hər bir dövlətin imicini onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti müəyyən edir. Demokratiya və insan hüquqları bir-birilə qırılmaz surətdə bağlıdır və biri digərini şərtləndirir. Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına təminat verir. Digər tərəfdən isə əsas insan hüquq və azadlıqlarının qorunması cəmiyyətdə demokratiyanın təşəkkülü və inkişafı üçün həlledici amildir.

Demokratik, hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olundu. Proqramda ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulurdu.

Milli Fəaliyyət Planı üzrə Azərbaycanın fəaliyyəti Avropa Şurasının İnsan Hüquqları üzrə keçmiş komissarı Tomas Hammarberqin hesabatlarında "ən yaxşı təcrübə" kimi dəyərləndirilmişdi.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə artıq bir neçə ildir ki, mayın 18-dən iyunun 18-dək respublikamızda ənənəvi olaraq İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.

Ümumiyyətlə, Ombudsman xidməti insan hüquqlarının müdafiəsi üçün ən təkmil hüquq-müdafiə strukturlarından biri sayılır. Bu institutun mövcudluğu ölkəmizin vahid dünya hüquq məkanına inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir.

İnsan hüquqları aylığı çərçivəsində Milli Fəaliyyət Proqramının müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının səmərəli müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Proqramda dövlət orqanlarının üzərinə düşən mühüm vəzifələrin müəyyən edildiyi, onun 2.2-ci bəndində etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətin mütəmadi davamının insan hüquqlarına, multikulturalizmə xidmət edən əhəmiyyətli vəzifə kimi öz əksini tapdığı bildirilir. Ona görə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi heç də təsadüfi deyil.

İnsan hüquqlarının bir hissəsi olduğu üçün insanların irqi, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, əqidəsi və s. fərqlərə görə ayrı-seçkiliyin yolverilməz olmasına ölkəmizdə böyük önəm verilir və milli dəyərlərimizdən hesab edilən multikulturalizm sahəsində nailiyyətlərimiz dünyada yüksək qiymətləndirilir. Bu il çərçivəsində geniş tədbirlər planının həyata keçirilməsi ilə Azərbaycanın dünya multikulturalizminə öz növbəti dəyərli töhvəsini verməkdədir.

Azərbaycan Prezidentinin təsdiq etdiyi "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında, Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında və digər bu kimi strateji əhəmiyyətli sənədlərdə əhalinin müxtəlif qruplarının, o cümlədən uşaqların hüquqlarının müdafiəsi, onların inkişafı ilə bağlı tədbirlər uğurla həyata keçirilməkdədir.

İnsan hüquqları üzrə müvəkkilin təşəbbüsü ilə İnsan hüquqları aylığı çərçivəsində müvafiq dövlət qurumları, yerli icra hakimiyyətləri və QHT-lər tərəfindən silsilə tədbirlər davam etdirilir. Ölkəmizin şəhər və rayonlarında, kənd yerlərində yaşayan uşaqların, həmçinin qaçqın və məcburi köçkün, imkansız, valideyn himayəsindən məhrum olmuş, uşaq müəssisələrində tərbiyə alan, habelə baxımsız olan, zorakılığa məruz qalan və hüququ pozulmuş digər uşaqların problemləri ilə bağlı müvəkkilə dərhal müraciət etmək məqsədi ilə 24 saat fəaliyyət göstərən "916" nömrəli qaynar xətt vətəndaşların xidmətindədir.

Bir faktı da qeyd etməyə dəyər ki, son illərdə dövlət rəhbərliyinin humanist siyasəti nəticəsində ölkəmizdə 61 əfv sərəncamı imzalanıb və 11 amnistiya aktı həyata keçirilib. Təkcə sonuncu amnistiyanın 10 min məhkuma şamil edilməsi və 3500 məhkumun azadlığa buraxılması dünyada razılıq hissilə qarşılanıb.

Beləliklə, tam əsasla vurğulaya bilərik ki, ölkəmizdə ulu öndərimiz tərəfindən təməli qoyulmuş milli strategiyanın məntiqi davamı kimi insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsi Azərbaycanın demokratik inkişafı üçün möhkəm təməl yaradır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İŞİD ABŞ-dakı terror aktına görə məsuliyyəti öz üzərinə götürüb



İŞİD terror qruplaşması ABŞ-ın Florida ştatının Orlando şəhərində gecə klubuna edilən hücuma görə məsuliyyəti öz üzərinə götürüb.

Qanlı hadisə nəticəsində 50 nəfər ölüb, 53 nəfər yaralanıb.

ABŞ Prezidenti Barak Obama baş vermiş hadisəni terror aktı adlandırıb. Buna baxmayaraq, B.Obama cinayətin motivlərinin hələ də məlum olmadığını bildirib.

### Adi mənzil işıqlı kitabxanaya çevrilib



Çinin "Cao Pu" memarlıq şirkətinin dizaynerləri hündürmərtəbəli binanın mənzilini işıqlı və rahat kitabxanaya çeviriblər.

Kitabxanada işıqlı ağaclar çoxluq təşkil edir. Otaqların işıqlı olmasında onların da rolu az deyil.

Hazırda kitabxanada 5000-dən artıq kitab var. Maraqlıdır ki, kitabxananın eyvanı da oxucu zalına çevrilib. Otaqları biri-birindən ayıran divarlar isə kitab rəfləri rolunu oynayır.

### BƏƏ-də hərbi vertolyot qəzaya uğrayıb



Birləşmiş Ərəb Əmirliyində (BƏƏ) adi uçuş həyata keçirən hərbi vertolyotun qəzaya uğraması nəticəsində pilot və köməkçi pilot həyatını itirib.

Vertolyotun modeli və düşdüyü yerə dair rəsmi qurumlar tərəfindən ətraflı məlumat verilməyib.

Qeyd edək ki, BƏƏ-də mayın 15-də də təlim uçuşu zamanı hərbi vertolyot qəzaya uğramış, pilot və təlimçi həyatını itirmişdi.

### Çində hava limanında partlayış baş verib



Çinin Şanxay şəhərindəki Pudong Beynəlxalq Hava Limanında iki sərnişin çamadanının ard-arda partlaması nəticəsində 3 nəfər yaralanıb.

Partlayıcı maddələrin xarakterinə dair araşdırma başlanılıb. Hadisənin terror hücumu olub-olmamasına dair hələlik məlumat verilməyib.

Partlayışın baş verdiyi ərazi hüquq-mühafizə orqanları tərəfindən nəzarətə götürülüb və təyyarə reyslərinin normal hərəkətinə heç bir maneə törədilməyib.

### Mirror: İŞİD qruplaşmasının lideri Əbu-Bəkr Əl-Bağdadi öldürülüb



İngiltərənin Mirror qəzetinin məlumatına əsasən, İŞİD terror qruplaşmasının lideri Əbu-Bəkr Əl-Bağdadi öldürülüb.

İŞİD lideri ABŞ-ın rəhbərlik etdiyi koalisiya qüvvələrinin Suriyadakı hava zərbələri nəticəsində qətlə yetirilib. Bəzi mənbələrə görə, qruplaşma lideri ramazan ayının 5-ci günündə İraqın Mosul şəhərində, digər mənbələrə görə isə Suriyanın Rakka şəhərində öldürülüb.

İraqın təhlükəsizlik orqanları onlara məxsus təyyarənin Bağdadinin avtomobil konvoyunu Karablaya hərəkət etdikləri zaman bombaladığını bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Murovdağda əsgərlərlə görüş

***Qədim dövrlərdən bu günümüzə qədər Azərbaycan qadını, onun qəhrəmanlığı barədə xoş sözlər deyilib. Bütün müharibələrdə ərənlərə yardımçı olub, Vətənin ən ağır günündə düşmənə qarşı döyüşüb qadınlarımız. İndiki dövrdə də qadınlarımız istər ailədə, istərsə də cəmiyyətin müxtəlif sahələrində fərqlənirlər. Onlar xalqın gələcəyi naminə böyük işlər görməkdədirlər.***



Bu dəfə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin üzvləri əsgərlərlə Murovdağda görüşdülər. Qeyd edim ki, onlar daim cəbhənin müxtəlif istiqamətlərində olurlar. Hərbi hissənin qərargahında qonaqları qarşılayan zabit Rasim Manafov öncə birlik komandanı adından xoşniyyətli ənənəyə görə təşəkkürünü bildirdi.

Təşkilatın üzvləri düşmənlə təmas xəttində xidmət edən əsgərlərə baş çəkdilər.

Əsgərlərlə görüşən Abiyat Ağadadaşova deyir ki, məğrur Vətən oğullarına baş çəkmək onların öncə vətəndaşlıq borcudur. "Hələ Böyük Vətən müharibəsi illərində faşizm üzərində qələbə qazanmaq naminə xalqımızın görkəmli yazıçıları, şairləri və ziyalıları azərbaycanlı döyüşçülərin yanına gedirdilər. Doğma eldən hədiyyələr aparırdılar, onları qələbəyə ruhlandırırdılar".

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri onu da bildirdi ki, əvvəlcədən birlik komandiri ilə söhbətində yüksək dağlıq ərazidə xidmət edən əsgərlərin ehtiyaclarını öyrənmək istəyib. "Əlbəttə, ordumuz yüksək səviyyədə təmin olunub. Əvvəlki dövrlərlə müqayisədə ərzaq təminatı yüksəlib, məişət şəraiti tam yaxşılaşıb. Dövlətimizin bütün diqqəti böyük qələbəyə hesablanıb. Onların heç nəyə ehtiyacı yoxdur."

Bura gələndən hava şəraiti tez-tez dəyişilirdi. Gah duman çökür, gah da yağış yağır, şimşək çaxırdı. Zirvələrdə qar hələ ərimeyib. Uzun müddət burada xidmət edən zabit Elşən Qapaqov deyir ki, bu postda qar olmayan müddət ildə cəmi iki-üç aydır. Postun yaxınlığından dərə keçir. Zirvədən axıb gələn qar yolu bağlamışdı. Bir neçə əsgər qarı yarıb yol açırdı...

Döyüşçülər qonaqları duz-çörəklə qarşıladılar. Abiyat Ağadadaşova bərəkət rəmzi olan duzçörəyi əsgərlərlə böldü. Hamı çörəkdən daddı. Qonaqlar əsgərlərə gətirdikləri şirniyyatları payladılar. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevin, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Respublika Komitəsinin sədri Hikmət Osmanovun salamlarını döyüşçülərə çatdıran Abiyat xanım burada xidmət edən əsgərlərlə qürur duyduqlarını bildirdi. Zabitlər dedilər ki, aprel döyüşlərində əldə etdiyimiz qələbədə ayıqsayıq xidmət edən hər bir əsgərin də payı var. Onlara bundan sonra da Vətənə layiqincə xidmət etməyi arzulayan Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri bugünkü görüşün müqəddəs Ramazan ayına təsadüf etdiyini bildirdi. - Bu ay "Qurani-Kərim"in nazil olunduğu aydır, buna görə də əsgərlərə dilimizə tərcümə olunan "Quran" gətirdim, - dedi, asudə vaxtlarda "Quran"ı oxumağı əsgərlərə tövsiyə etdi. Sonra müqəddəs kitabı və üçrəngli bayrağı baş leytenant İlkin Yusifova təqdim etdi.

Həmin zabit on ilə yaxındır ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. İlkinə görə, yüksək dağ şəraitində xidmət etmək şərəflidir. "Mövqelərimizə düşmən heç zaman yaxın gələ bilməz. Çünki əsgərlərimiz hər zaman ayıqsayıqdırlar."

Öyrəndim ki, xidmətdə fərqlənən əsgər və zabitlər Müdafiə nazirinin müvafiq əmri ilə mükafatlara layiq görülüblər. Zabit Rasim Manafov və Abiyat Ağadadaşova mükafatları hərbi qulluqçulara təqdim etdilər.

Sonda Gəncə Qarnizoru Zabitlər Evinin "Vətən uğrunda" adlı səyyar musiqi-təbliğat qrupu əsgərlər qarşısında vətənpərvərlik mahnıları ilə çıxış etdi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Tərtərdə partlamamış hərbi sursat aşkar edilib

İyunun 12-də iki ev və həyətyanı sahə, bir əkin sahəsi, üç otlaq sahəsi, 19 partlayış yerinə baxış keçirilib. Bir ədəd partlamamış hərbi sursat (9M22U raketinin (Qrad) mühərrik hissəsi) aşkar olunaraq götürülüb. Gün ərzində 29390 kvadratmetr ərazi təmizlənib.

Bu barədə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) iyunun 12-də Tərtər, Füzuli və Mingəçevir rayonlarında aşkarlanmış partlamamış hərbi sursatlar barədə yaydığı hesabatında bildirilir.



ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun Cəmilli kəndində bir əkin və bir otlaq sahəsində beş partlayış yerinə baxış keçirilib, 1 ədəd partlamamış hərbi sursat (9M22U raketinin (Qrad) mühərrik hissəsi) aşkar edilərək götürülüb, nəticə etibarı ilə 9000 kvadratmetr ərazi yoxlanılıb.

Şıxarx kəndində bir ev və həyətyanı sahə, bir əkin sahəsində doqquz partlayış yerinə baxış keçirilmiş, partlamamış hərbi sursat aşkar edilməyib, nəticə etibarı ilə 15 000 kvadratmetr ərazi yoxlanılıb.

Füzuli rayonunun Horadiz şəhərində iki otlaq sahəsində iki partlayış yerinə baxış keçirilib, 4 ədəd BM-21 raketi partlamış vəziyyətdə aşkar edilib, nəticə etibarı ilə 1880 kvadratmetr ərazi yoxlanılıb.

Qazaxlar kəndində bir ev və həyətyanı sahədə bir partlayış yerinə baxış keçirilib, 1 ədəd tank əleyhinə raketin (PQ-9) partlamış qalıqları aşkar edilib, nəticə etibarı ilə 510 kvadratmetr ərazi yoxlanılıb.

Mingəçevir rayon Polis İdarəsinin və FHN-nin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin məlumatına əsasən, Mingəçevir şəhərində 502 saylı məcburi köçkün yataqxanasının həyətindəki naməlum obyektə baxış keçirilib. Məlum olub ki, həmin obyekt əleyhqaz qurğusunun filter hissəsidir. Obyekt ərazidən götürülüb, nəticə etibarı ilə 3 000 kvadratmetr ərazi yoxlanılıb.

Ümumilikdə Agentlik tərəfindən aprelin 7-dən iyunun 12-dək Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Goranboy, Tovuz, Samux, Şəmkir, Cəlilabad, Ucar, Astara rayonlarında, Mingəçevir, Sumqayıt və Bakı şəhərlərində 595 ev və həyətyanı sahə, 2 hərbi hissə, 2 kənd qəbiristanlığı, 5 kənd orta məktəbi, 1 tibb məntəqəsi, 22 ferma, əkin sahələri və 1 çaxır zavodu ərazisinə baxış keçirilib, 1522 ədəd partlamamış hərbi sursat, 11 ədəd piyada əleyhinə mina (PMN), 3 ədəd piyada əleyhinə POMZ-2 və 7 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

Hazırda Agentlik tərəfindən yaradılmış xüsusi təyinatlı mobil çevik qrupları minaaxtaran itlərin dəstəyi ilə təmas xəttində yerləşən kəndlərdəki evlərlə yanaşı məktəblər və digər obyektlərin yerləşdiyi ərazilərdə əməliyyatları davam etdirir.

# Xarici hərbi xronika

## Qırıcılar düşməni yerdə də aşkar edəcək

İtaliyanın Hərbi Hava Qüvvələri yeni "özününkü-yad" tanıma sisteminin sınağını həyata keçirib. Bu sistem vasitəsilə qırıcılar yerdə düşmənin yerüstü dəstələrini seçə biləcəklər. "Filqhtqlobal"ın məlumatına görə, sistemin sınağı Romanın yaxınlığında yerləşən "Pratika-di-Mare" aviasiya bazasında həyata keçirilib. Tanıtma sistemi "Typhoon tranş 1" qırıcılarında quraşdırılıb. Sınaq müddətində tanıma sistemi quru qoşunlarına məxsus zirehli maşınlarının bir neçəsini tanıyıb. 2020-ci ilə qədər NATO-nun bütün təyyarələrinin Mode-5 tanıma sistemi ilə təchiz edilməsi nəzərdə tutulub.

## Hipersəsli "Sirkon" raketi

Dövlət sınağı həyata keçirilən hipersəsli "Sirkon" raketinin seriyalarla istehsalı 2018-ci ildə nəzərdə tutulub. Bu haqda Rusiya müdafiə sənayesi kompleksindən TASS agentliyinə məlumat verilib. Qanadlı raketlər 2011-ci ildən "Taktiki raket silahlanması" korporasiyasında hazırlanır. Onlar ilk növbədə donanmanın silahlanmasında gəmiəleyhinə ağır "Qranit" raket komplekslərini əvəz edəcək və okean ərazisində olan "lider" tipli gəmilərin, həmçinin modernləşdirilmədə olan 1144 layihəli "Orlan" atom gəmilərinin silahlanmasına qəbul ediləcək.

## Rusiya "Armat" tanklarını istehsal edəcək

Rusiya ordusu "Armat"ın zirehli platforma bazası əsasında 2300 ədəd döyüş maşınını əldə edəcək. Bu haqda "Uralvaqon zavodu" müəssisəsinin rəsmi nümayəndəsi Oleq Siyenko məlumat verib. Onun sözlərinə görə, dövlət proqramı üzrə "Armat" tankları silahlanmaya 2020-ci ilə qədər daxil edilməlidir. Qiymət məsələsinə gəldikdə isə döyüş maşınının kütləvi şəkildə istehsalı 500 milyon rubl təşkil edəcək.

## "Sarbaz" gözətçi gəmisi

Qazaxıstanın 24KZ telekanalının məlumatına görə, bu yaxınlarda Ural bölgəsində növbəti 2-ci dərəcəli gözətçi "Sarbaz" sərhəd gəmisinin buraxılışı həyata keçirilib. Bu layihə əsasında 250 Bars-MO raket-artilleriya qayıqları da hazırlanıb. Gəmi Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sifarişi ilə hazırlanıb və Xəzər dənizində bu ölkənin su sərhədlərinin mühafizəsi üçün nəzərdə tutulub. İndiyə qədər Qazaxıstanın sərhəd xidməti üçün "Sərdar", "Sakşi", "Jenis" və "Semser" gəmiləri də hazırlanıb.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 396
Nüsxə 4700